## Əsrin Lideri - 100

# Xalqımın səsinə səs verin!

...Ən mötəbər beynəlxalq məclisin tribunasından sizin qarşınızda həyəcan və qürur hissi ilə çıxış edirəm. İlk dəfədir ki, müstəqil Azərbaycanın Prezidenti Dünya Birliyi tərəfindən tanınmış və bərqərar hüquqlarla onun tərkibinə daxil olmuş öz ölkəsini Dünya Birliyinə təqdim edir.

Biz bir çox dövlətlərin böyük marağını doğuran ərazidə - Avropa və Asiyanın mühüm coğrafi-siyasi qovuşuğunda yerləşərək, geniş təbii ehtiyatlara və böyük sənaye potensialına malik olaraq, Azərbaycan xalqının qəti əzminə və inamına arxalanaraq öz müstəqilliyimizin möhkəmləndirilməsinə və demokratik islahatların, bazar islahatlarının həyata keçirilməsinə doğru yönəldilmiş bu strateji xətti aparırıq. Bu gün mən bu yüksək tribunadan qətiyyətlə bildirirəm ki, heç kəs Azərbaycan xalqını tutduğu yoldan geri çəkilməyə məcbur edə bilməz və biz ölkəmizin gələcəyinə nikbinliklə baxırıq...





...Köhnə dünya qaydasının pozulmasının reallıqlarına çevrilmiş azğın millətçilik və separatçılıq Qafqazı, Balkan yarımadasını, Yer kürəsinin başqa nöqtələrini od-alova və qana bürüyən münaqişələr doğurmuşdur. Bu münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmlənməmiş demokratik cəmiyyətlərin varlığı üçün birbaşa təhlükə doğurur, həm də bütün dünyada sülh və təhlükəsizlik üçün qorxu yaradır.

**Təhlükəsizlik Şurası qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?**

Buna görə də cəbhələşmədən sonrakı dünyada nüfuzlu beynəlxalq təşkilatların, böyük dövlətlərin üzərinə xüsusi məsuliyyət düşür. Onlar öz siyasi sanbalından, iqtisadi, maliyyə və hərbi imkanlarından istifadə edərək münaqişələrin aradan qaldırılmasına, Yer üzünün bütün guşələrində sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə öz potensialını daha fəal yönəltməlidirlər.

Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək. Bu gün Təhlükəsizlik Şurası öz qətnamələrinin təminatlı şəkildə yerinə yetirilməsinə nail olmaqla həmişəkindən daha çox əzmkarlıq göstərməlidir. Ümid edirik ki, Şuranın tərkibinin genişləndirilməsi onun möhkəmləndirilməsinə kömək edəcəkdir.

Biz Baş Məclisin roluna böyük əhəmiyyət veririk. Bu rolu hər şeydən əvvəl onda görürük ki, qarşılıqlı güzəştlərə və mənafelərin tarazlığına əsaslanan qərarlar qəbul edilərkən dövlətlərin ən sıx qarşılıqlı fəaliyyəti təmin edilsin.

İndiki şəraitdə BMT baş katibinin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, habelə beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində baş katib ilə birlikdə məsuliyyət daşıyan üzv dövlətlərin ona göstərməli olduqları köməyin əhəmiyyəti də artır.

Bütövlükdə Azərbaycan Respublikası gələcək üçün BMT-nin perspektivlərini nikbinliklə qiymətləndirir və bundan sonra da Birləşmiş Millətlər Təşkilatının yüksək prinsiplərini müdafiə etmək, təşkilatın nüfuzunun səmərəsinin artırılmasına nail olmaq əzmindədir.

Sizin bir çoxunuza “müharibə”, “silahlı münaqişə” məfhumları xoşbəxtlikdən, tarixi və ya evinizdən uzaqda baş verən hadisələri xatırladırsa, mənim xalqım üçün bu, amansız reallıq, qanlı-qadalı adi günlərdir.

...Bütün bunlar xalqların öz müqəddəratını təyin etməsi hüququnun əsassız olaraq hər hansı bir etnik icmanın öz müstəqilliyini özbaşına elan etmək və başqa dövlətin tərkibinə daxil olmaq hüququ kimi yozulması ilə pərdələnir. Öz müqəddəratını təyin etmək hüququnun bu cür yozulması dövlətin suverenliyi və ərazi bütövlüyü prinsipləri ilə kəskin ziddiyyət təşkil edir. Bu hüququ mütləqləşdirmək sahəsində hər hansı bir cəhd amansız münaqişələrə gətirib çıxarır.

Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi ilə əlaqədar son iki il ərzində Təhlükəsizlik Şurasının 4 qətnaməsi və onun sədrinin 6 bəyanatı qəbul edilmişdir.

Lakin bütün bu qərarlara Ermənistan Respublikası hələ də qətiyyən məhəl qoymur. Bundan əlavə o, Azərbaycanın işğal edilmiş ərazilərində öz hərbi qüvvələrini artırmaqda davam edir.

Digər tərəfdən, Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir?

Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər.

Beynəlxalq hüquq normalarını kobud surətdə pozan dövlət barəsində təsirli tədbirlər çox nüfuzlu beynəlxalq təşkilatın Dünya Birliyi qarşısında borcudur.

Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün göstərilən səylərdə biz ATƏM kimi nüfuzlu təşkilata da bel bağlayırıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏM-in yaratdığı Minsk qrupu da işğal edilmiş bütün ərazilərin azad olunması və işğalçı qüvvələrin Azərbaycanın hüdudlarından tamamilə çıxarılması, onun suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq miqyasda tanınmış sərhədlərinə hörmət edilməsi zəruriliyinə əsaslanır.

Lakin ATƏM-in müvafiq mexanizmləri olmadığından onun çoxsaylı vasitəçilik səyləri, təəssüf ki, indiyədək hər hansı bir nəzərəçarpacaq konkret nəticələrə gətirib çıxarmamışdır. Bu gün biz yalnız bir müsbət nəticə əldə etmişik: Rusiya Federasiyasının və ATƏM-in Minsk qrupunun çox böyük səyləri bahasına və fəal vasitəçilik missiyası sayəsində münaqişə zonasında atəşkəs əldə olunmuşdur.

Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldıraraq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə sabit və əməli danışıq prosesi aparmaq olar.

Həm də biz beynəlxalq normalara uyğun olaraq sülhpərvərlərin dəqiq mandata malik olması şərti ilə razılaşdırılmış sülh qərarlarının həyata keçirilməsinin təmin edilməsində Dünya Birliyinin köməyinə ümid bəsləyirik.

Biz atəşin kəsilməsi haqqında əldə edilmiş razılığı yüksək qiymətləndirərək başa düşürük ki, bu hələ sülh demək deyil, lakin atəşkəs tezliklə sülh əldə edilməsi üçün lazımi şərait yaradır. Biz sülh sazişi əldə edilənədək və silahlı münaqişəyə tamamilə son qoyulanadək atəşkəs rejiminə əməl etmək əzmində olduğumuzu dəfələrlə bildirmişik. Bu gün mən Birləşmiş Millətlər Təşkilatının yüksək tribunasından bunu bir daha bəyan edirəm.

...1992-ci ilin yanvarında gənc Azərbaycan dövlətinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv qəbul edilməsi onun təşəkkülü prosesində mühüm mərhələ oldu. BMT-yə daxil olan bir çox beynəlxalq təşkilatlarla əməkdaşlığımızın miqyası həmin vaxtdan etibarən artır. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə qarşılıqlı fəaliyyətimiz bizim üçün xüsusən dəyərlidir. Dünyanın bu ən iri maliyyə təsisatları mütəxəssislərinin Azərbaycandakı əməli işi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət daşıyan konkret layihələr müəyyənləşdirilmişdir.

...BMT Baş Məclisinin bu yüksək tribunasını belə bir ümidlə tərk edirəm ki, siz xalqımın səsini eşidəcəksiniz, xalqımın səsi ürəklərinizə yol tapacaqdır.

**BMT Baş Məclisinin**
**49-cu sessiyasındakı nitqindən**
**Nyu-York, 29 sentyabr 1994-cü il**

# Bu müharibə perspektivsiz müharibədir

**Bu gün “Sülh naminə tərəfdaşlıq” proqramını imzalamağa hazırıq**

...Bu müharibə perspektivsiz müharibədir və qan tökülməsinə mümkün qədər tezliklə son qoymaq, regionumuzda sülhü bərqərar etmək lazımdır. Bu gün bir daha əmin olduğumuzu bildiririk ki, bizim sülhməramlı təşəbbüslərimizin həyata keçirilməsi üçün beynəlxalq təşkilatlar, ilk növbədə ATƏM və onun Minsk qrupu əlavə tədbirlər görəcəklər. Bu gün NATO-nun iqamətgahında olarkən yarandığı dövrdən bəri Avropada və bütün dünyada sabitlik yaradılmasına, sülh və əməkdaşlığın möhkəmləndirilməsinə çox böyük töhfə vermiş Şimali Atlantika İttifaqına dərin hörmətimi bildirmək istəyirəm. Biz NATO-ya yüksək ehtiramla yanaşır və onun müasir mərhələdəki fəaliyyətinə böyük əhəmiyyət veririk. Şimali Atlantika Əməkdaşlığı Şurasının yaradılması NATO-nun fəaliyyətində mühüm mərhələ olmuşdur və başqa dövlətləri NATO-nun orbitinə cəlb etməyə imkan verəcəkdir. Biz NATO-nun bu il yanvarın 10-da “Sülh naminə tərəfdaşlıq” sənədini qəbul etməsi barədə qərarını razılıqla qarşılayır və bunu həm də ölkələr arasında əməkdaşlığı daha da inkişaf etdirmək üçün NATO-nun fəaliyyətində mühüm addım sayırıq. NATO-nun 10 yanvar tarixli qərarında Cənubi Qafqazda yaranmış vəziyyətdən xüsusi narahatlıq ifadə olunmasına, regionumuzda, o cümlədən Azərbaycanda, Ermənistanda və Gürcüstanda münaqişənin aradan qaldırılmasının zəruriliyinə əminliyin əksini tapmasına böyük əhəmiyyət veririk. Bütün bunlar bizi cəlb edir və böyük maraq doğurur. Bunları əsas tutaraq, biz NATO-nun Şərqi Avropa ölkələrini və keçmiş Sovet İttifaqına daxil olan yeni müstəqil dövlətləri “Sülh naminə tərəfdaşlıq” sənədinə qoşulmağa çağıran dəvətini böyük razılıqla qarşılamışıq. Biz həmin sənədi imzalamağı qərara almışıq və NATO ilə əməkdaşlığa böyük ümid bəsləyirik. Bu əməkdaşlıq həm Azərbaycanın Qərb demokratiyasına qovuşması, həm də NATO ilə əməkdaşlıq edərək, regionda vəziyyəti sabitləşdirməyə, müharibəni dayandırmağa, Azərbaycan ilə Ermənistan arasında sülh və mehriban qonşuluq yaratmağa yönəldilmiş əlavə yollar axtarmaq baxımından bizdən ötrü çox mühümdür. Biz buraya bu fikirlər və ümidlərlə gəlmişik və bu gün “Sülh naminə tərəfdaşlıq” proqramını imzalamağa hazırıq. Bir daha ümid etdiyimi bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bu addımı NATO tərəfindən layiqincə qiymətləndiriləcək, qarşılıqlı surətdə faydalı olacaq və başlıcası isə, regionumuzda vəziyyətin sabitləşməsinə kömək edəcəkdir.







***Brüsseldə NATO Şurasının***
***iclasındakı çıxışından***
***4 may 1994-cü il***

# Biz islam dünyasının nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə edə bilməmişik...

...Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik. Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da məhz bu nəcib məqsədlərə xidmət edir. Asiyanın, Afrikanın və Avropanın 52 dövlətini birləşdirən bu təşkilat bir milyard nəfərdən çox əhaliyə, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir. Ölkələrimiz arasında həmrəylik, hərtərəfli əməkdaşlıq, sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün ədalətə əsaslanan zəruri tədbirlər görülməsi İslam Konfransı Təşkilatının əsas prinsipləridir və onun nizamnaməsində öz ifadəsini tapmışdır. Ötən 25 il ərzində bizim təşkilatımız dünya siyasətinin mühüm amilinə çevrilmişdir, müasir dünyanın qlobal və regional problemlərinin həllinə sanballı təsir göstərir. Amma etiraf etmək lazımdır ki, biz islam dünyasının və öz təşkilatımızın nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə edə bilməmişik. Biz nəinki təkcə öz xalqlarımızın, həm də bütün dünyanın tərəqqisi işində daha sanballı, daha təsirli rol oynaya bilərik və oynamalıyıq.




...Çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın yeddinci əsrindən islam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır. XIX əsrin əvvəllərində Azərbaycan uzunmüddətli dövlətlərarası müharibələr nəticəsində öz dövlətçiliyindən məhrum olmuş, sonra isə keçmiş Sovet İttifaqının bir hissəsinə çevrilmişdir. Bu illər ərzində bizim müsəlman məsləkimiz ciddi sınaqlardan keçmiş, Azərbaycan xalqı öz dini hisslərini açıq ifadə edə bilməmişdir. Amma bu hissləri biz içimizdə yaşatmışıq, qoynumuzda saxlamışıq, hətta ən ağır dövrlərdə öz dinimizə etiqad bəsləmişik. Sovet İttifaqı dağıldıqdan sonra, 1991-ci ildə istiqlaliyyət əldə etməklə biz yenidən öz kökümüzə qayıtmış, din azadlığımıza nail olmuşuq. Elə həmin il Azərbaycan İslam Konfransı Təşkilatına daxil olmuşdur, onun tədbirlərinin fəal iştirakçısıdır və onun bütün strukturları ilə əməkdaşlıq edir. Müstəqil Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra mən müsəlmanlıq borcuma əməl edərək, Məkkə və Mədinə şəhərlərinə gedib müqəddəs ziyarətgahlara səcdə qılmışam, ümrə mərasimini yerinə yetirmişəm. Azərbaycan Respublikasının prezidenti kimi mən öz qardaşlarımla - müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm. Əminəm ki, Mərakeşdəki Zirvə görüşü Azərbaycanın bütün islam dünyası ilə əməkdaşlığının genişlənməsinə və dərinləşməsinə kömək edəcəkdir...

...Sizə məlum olduğu kimi, Azərbaycan xalqı qonşu Ermənistan Respublikasının təcavüzünə məruz qalmış, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən qədim mədəniyyət abidələri məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir. Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən 100 min nəfəri yaralanmış və şikəst olmuş, bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır. Bu adamlar, o cümlədən uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüş, qohum-əqrəbalarını itirmişlər. İndi isə sərt qış şəraitində çadır şəhərciklərində dözülməz vəziyyətdə yaşayırlar, soyuqdan donurlar, yoluxucu xəstəliklərə tutulurlar, ərzaq, dərman, palpaltar sarıdan korluq çəkirlər. Öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. O, bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və biz çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir. Görüşümüzə Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə layihəsi təqdim edilmişdir. Mən hamınızı bu layihəni bəyənməyə dəvət edirəm. Son vaxtlar Ermənistan ilə Azərbaycan arasında atəşkəs əldə olunmuşdur. Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Budapeştdəki Zirvə görüşü çoxmillətli sülhü mühafizə qüvvələrinin təşkil olunub münaqişə zonasına göndərilməsi haqqında mühüm qərar qəbul etmişdir. Bu, Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin iştirakçısı olan dövlətlərin səyləri və bizim onlarla konstruktiv əməkdaşlığımız sayəsində mümkün olmuşdur. Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır. Lakin Ermənistan Respublikası işğal olunmuş ərazilərin azad edilməsinə dair Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən boyun qaçırır. Hazırda sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyəti var. İslam Konfransı Təşkilatı kimi nüfuzlu təşkilat və onun hər bir üzvü tərəfindən təzyiq göstərilməsi də son dərəcə vacibdir. Ona görə də, hörmətli görüş iştirakçıları, mən sizə üz tutub xahiş edirəm ki, siyasi iradənizi qətiyyətlə bildirəsiniz və Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda bizim ədalətli mübarizəmizə tərəfdar çıxasınız...

***İslam Konfransı Təşkilatının***
***Kasablanka Zirvə***
***toplantısındakı çıxışından***
***13 dekabr 1994-cü il***